İlaxır çərşənbələr təbiətin yaz fəslinə və onun sosial aləmdəki reaksiyası olan Novruz bayramına hazırlıq mərhələsidir. Yeni həyatın yaradılış bayramı olan Novruz öncəsi keçirilən çərşənbələrin hərəsi özlüyündə 4 yaradılış ünsüründən birinin təcəssümçüsüdür. Qış zamanında donmuş-fəaliyyətdən qalmış bu həyat stixiyaları yazqabağı bir-bir yenidən həyat enerjisi qazanmaqla canlanmağa – dirilməyə başlayır. Bu da, hər şeydən öncə, həm də onunla bağlıdır ki, təbiətdə, kainatda zaman amili tsiklik bir dövrə ətrafında cərəyan edir, dövri şəkildə təbiətin ölüb-dirilməsi təkrarlanır. Yazda oyanan-dirilən təbiət yayda, payızda öz fəaliyyətini davam etdirib, qış fəslinə daxil olduqda qış yuxusuna-ölü sükutuna qərq olur.

Müvəqqəti zaman daxilində ölmüş həyatın yenidən dirilik tapması üçün yaradılışın əsası yenidən təşkil olunmalıdır. Bünövrə rolunda ilaxır çərşənbələrin timsalında reallaşan yaradılış ünsürləri təbii qanunauyğunluqlara əsaslanır.



# Novruz bayramı – təbiətin yaradılış qanunu

Qışın özü qarışıq ilin dörd fəsli Qış fəslinin içində donub-sükuta dalıb. O səbəbdən də bu fəsillərin özlərinin simvolik də olsa, dirilik tapması-oyanışı baş verməlidir. Bax ilaxır çərşənbələrin hər biri bir yaradılış ünsürünü simvollaşdırdığı kimi, bununla bahəm hər biri də müəyyən bir fəsli işarələyirlər. Od çərşənbəsi ən qızmar fəsil olan yayı, torpaq çərşənbəsi torpağın barbərəkət fəsli olan payızı, su çərşənbəsi şaxtası-qarı, buzu ilə fərqlənən qışı, yel çərşənbəsi də təbiətə təmiz meh-hava, ılıq, saf külək bəxş edən yazı-baharı (ritual olaraq Novruzu) xarakterizə edir. Təbiətdəki fəsillərin yer düzümü – bir-birlərini hansı ardıcıllıqla əvəz etməsi qaydası hakimdirsə, ilaxır çərşənbələrdə də bu cür sabitlik prinsipi özünü göstərməlidir. Belə olduğu təqdirdə çərşənbələrin sıra ardıcıllığı bu şəkildə sıralanmalıdır: od, torpaq, su və yel çərşənbələri.

Yel çərşənbəsi yaz(bahar) fəslini əks etdirirsə, yaz fəslinin ardınca gələn yay fəsli odu işarələməklə od çərşənbəsi, ardınca payız fəslinin simgəsi olan torpaq daha sonra isə qışın rəmzi olan su çərşənbəsi ard-arda gəlməklə sonucda gəlib yenidən yel çərşənbəsinə-yaz fəslinə dayanmaqla yenidən yaz fəslini doğurmalıdır. Təbiətdəki qapalı təkrarlanan ritmik qayda belədir.

Çünki bu çərşənbələrin fəlsəfi mahiyyəti həm də pillə-pillə qışın donunu açmağa – soyuğunu qızdırmağa, istiləşdirib, onda donmuş həyat hüceyrələrini diriltməyə xidmət edir. Bu səbəbdən də ilk növbədə istilik əlamətlərinin daşıyıcısı olan od çərşənbəsi qışın boz ayına özünün ümumi hərarətini hiss elətdirməlidir Növbəti çərşənbədə bu od-istilik konkret olaraq öz isti nəfəsi ilə torpağı yumşaltmalı – qızdırımalıdır. Bundan sonrakı üçüncü çərşənbə qışın özünü qış yuxusundan silkələdib – oyatmaqla donmuş suların –buzun donunu açmalıdır. Beləliklə, yaz fəslinin gəlişinə tam zəmin hazırlanır ki, ən nəhayət, sonuncu- 4-cü çərşənbədə od-istilik sərhəd bilməyən hava məkanına yerimək-lə bütün dünyaya ümumi bir yaz havası – bahar ovqatı bəxş etməlidir ki, bununla da yaz fəslinin (ritual olaraq Novruzun) gəlişi reallaşır.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 12-ci səhifədə)*

Elə ilaxır çərşənbələrin hamısında və eləcə də Novruzun özündə qalanan bayram tonqalları əslində odun-istiliyin bu həyat ünsürlərinin hamısını müşayiət eləməsi mahiyyətini daşıyır. Çünki hər bir donmuş təbiət ünsürünün canına istilik hopmalıdır ki, oyanış baş versin. Bu səbəbdəndir ki, od (tonqal) əvvəldən axıradək Novruz mərasim kompleksini müşayiət edir. Əzəl çərşənbə kimi su çərşənbəsinin keçirilməsi də bu baxımdan məntiqə uyğun deyil. Çünki su çərşənbəsi mahiyyətcə istinin (odun) suya düşməsi – suyun qızması anlamına gəlirsə, od (çərşənbəsi) gəlmədən, su odu-istiliyi hardan götürüb qıza-istiləşə bilər? Yəni ilkin olaraq od çərşənbəsi gəlir, daha sonra isə istilik daşıyıcısı olaraq özündən sonrakı çərşənbələri də müşayiət edib, digər ünsürlərə də özünün hərarətini bəxş edir.

Təbii – bioloji aləmdə olduğu kimi, heyvanat aləmində də ilkin yaradılış ünsürü kimi od amili çıxış edir. Sevgi aləmində də belədir. Cana eşq atəşi düşməlidir. Eşq odundan yaranan ehtiras nəticəsində əks-cinslə yaxınlıq baş tutur. Əks-cins məcazi olaraq torpağı təmsil edir. Bu isti münasibətdən torpağın təcəssümçüsü olan ana rəhminə bir qətrə su (damcısı) düşür və yeni həyatın baş verməsi ("Hər bir canlını sudan yaratdıq" kəlamında deyildiyi kimi) üçün mayalanma prosesi baş verir. Müəyyən müddətdən sonra isə qapalı mühitdən – su ilə təmin olunmuş bir mühitdən, ana bətnindən azad olmaqla – açıq havaya çıxmaqla

# Novruz bayramı – təbiətin yaradılış qanunu

yeni bir canlı dünyaya təşrif buyurmuş olur. Göründüyü kimi, təbii – bioloji aləmdə yeni həyatın yaranması üçün gözlənilən ardıcıl proseslər heyvanat aləmində, sosial dünyada da eyni ardıcıllıqla baş verir.

Dini-mifik hekayətlərdə də bu prinsip özünü göstərir. Palçıqdan yoğrulub – yapılan ilkin canlının hərəkətə gəlməsi üçün ən sonda ona üfürülüb hava verilir. Ondan sonra yaradılmış məxluq cana gəlir. Göründüyü kimi, burda da sonuncu yaradılış ünsürü olaraq hava (yel) amili həlledici rol oynayır.

Təbiətin əzəli və əbədi, vahid yaradılış qanunu vardır, bu pozulmaz prinsip yaradılış fəlsəfəsini əks etdirən Novruz mərasimlərində də sövq-təbii hal kimi özünü göstərir.

Biz insanların istəyindən, iradəsindən asılı olmadan həyatın qanunları ardıcıllığı ilə davam edir...



***Şakir ALBALIYEV***